# CƏMŞİD ƏMİROV (100)

Görkəmli yazıçı, Azərbaycan ədəbiyyatında detektiv janrın banisi, jurnalist Cəmşid Əmirov 10 fevral 1918-ci ildə Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutuna daxil olmuş (1934), eyni zamanda bir sıra respublika qəzetlərində də çalışmışdır. Son kursda institutu tərk etdiyinə görə öz ixtisası üzrə (mühəndis-qeoloq) işləməyə həvəs göstərməyən Cəmşid Əmirov 1937-1940-cı illərdə "Azərbaycan idmançısı" qəzetində məsul kitab , 1940-1941-ci illərdə "Gənc işçi" qəzetində şöbə müdiri, 1941-ci ildə isə "Bolşevik nefti" qəzetində məsul katib və "Əzizbəyovneft" trestində mühəndis-qeoloq kimi fəaliyyət göstərmişdir.

İkinci Dünya müharibəsində, ön cəbhədə Sovet Ordusu tərkibində zabit kimi Almaniya, Polşa, Çexoslovakiya, Avstriya və Çin ölkələrində olmuşdur. Ordudan tərxis ediləndən sonra "Amustral" kambinatının tikintisində fəal iştirak edən yazıçı sonralar "Azərbaycan gəncləri" qəzetində şöbə müdiri, "Sovet ticarəti" (Moskva) qəzetində xüsusi müdir, Azneftnəşrdə baş redaktor, "Azərbaycan neft təsərrüfatı" jurnalında redaktor müavini, "Bakı" qəzetində şöbə müdiri vəzifəsində işləmişdir. 1969-cu ildən etibarən 3 il ərzində Bakı maliyyə-kredit texnikumunda direktor olmuş Cəmşid Əmirov sonra fərdi təqaüdə çıxmışdır.

O, "Vətən müharibəsi" (I dərəcəli), "Qırmızı ulduz" ordenləri, "Döyüşdə fərqlənməyə görə", "Köniqsberqin alınmasına görə", "Yaponiya üzərində qələbəyə görə" medallarına layiq görülmüşdür.

Cəmşid Əmirov ədəbi yaradıcılığa 1940-cı illərdən oçerk, felyeton və hekayələrlə başlamışdır. Onun ilk mətbu oçerki "Dəqiqələr, saniyələr..." "Azərbaycan gəncləri" qəzetinin 28 avqust 1946-cı il tarixli sayında dərc edilmişdir. Cəmşid Əmirovun "Sahil əməliyyatı" (1958), "Brilliant məsələsi" (1963), "Qara Volqa" (1966), "Şəhər yatarkən" (1982) romanları Azərbaycan ədəbiyyatında detektiv janrda yazılmış ilkin əsərlərdəndir. Yazıçı 1966-cı ildə "Azərbaycanfilm"də çəkilmiş "İstintaq davam edir" adlı bədii filmin ssenarisini də yazmışdır. 1994-cü ildə onun əsəri əsasında daha bir film – "Qara Volqa" çəkilmişdir.

Cəmşid Əmirovun əsərləri 1993-cü ildən başlayaraq bir-neçə dəfə, xüsusilə "Qara Volqa" dəfələrlə müxtəlif özəl nəşriyyatlar tərəfindən təkrar nəşr edilmişdir.

Cəmşid Əmirov 29 dekabr 1982-ci ildə vəfat etmişdir.

*Şabanova Aysel (ADU)*
*Xanhüseynova Amalya (ADU)*